

■ Elnur Uğur

## SƏNİN

Xəyalın kölgətək gəzir arxamca,
Görəsən, düşürəm yadına sənin?
Od çərşənbəsidir bu gün təqvimlə,
Mən çoxdan yanmışam oduna sənin.

Baxsana əsər yox məndən bu təndə,
Gözəl vətəndaşdım səntək Vətəndə.
Yadelli işğalı başlayan gündən,
Sərxoşam içdiyim andına sənin.

Daha nə sən sənsən, nə də mənəm mən,
Bizim eşqimizi yıxdı mənəm-mən.
Telində yad əli gəzdiyi gündən,
And içə bilmirəm adına sənin.

## NİFRƏT

Savabı eşqdən yağanlar,
Nifrət hər günaha, nifrət.
Sabaha sevgi doğanlar,
Nifrət hər cür aha, nifrət.

Torpaq geyindi çəməni,
Hər tərəf yaşıl səməni.
Sevən sevməzsə, seveni,
Nifrət, o sabaha nifrət.

Yer üzünə süzsün barış,
Eşq dolansın qarış-qarış.
Sussun ölümə yalvarış,
Nifrət, hər silaha nifrət!

## GƏLDİM, GÖRDÜM

Mən dünyaya gələndə rəngi birdi dünyanın,
Baxdığım hər nöqtəsi ocaq, pirdi dünyanın.
Anam sevinci doğdu, oldum dərdi dünyanın,
Dərd daşıdım sabaha, dərd qaralar daşımda.

Oldum sevən dəlisi hər gələn baxdı getdi,
Ürəyimdə şimşəktək neçə qız çaxdı getdi.
Ulduz-ulduz göyümdən talelər axdı getdi,
Ay zülmətə qərq oldu mənim külbaş başımda.

Boyuma boy vermədi neçə-neçə səs tonu,
Yırtıldı dərim hər gün, ruhum yaşadı sonu.
Bu məhəbbət nəfəsim, bu qara ömrün donu,
Əlimi tez buraxdı ömrümün gənc yaşında.

İndi hara baxıram rəngbərəngdi baxışlar,
Allah, nə qədərdi de, ala bəzək naxışlar.
Bu həyat kürsüsündə yaz ətirli çıxışlar,
Çıxışa çəkir məni ömrün qarlı qışında.

Hər gün sabaha ümid, hər gün sabaha arzu,
Həyat sevgi yaramın üstünə səpir duzu.
Sən son dayanacaqda mələməmiş ey quzum,
Bil ki boğulacaqdır qazanın öz aşında

## OLMADI

Hərdən fikir-fikir yeriyirsən beynində,
Hərdən düyməsi qırılan köynəyində
Uşaqlığına qayıdırsan günlərin.
Hardansa qırdığın pəncərələrin,
Qırıqlarından axır ümidlərin qanı.
Düşünürsən onda xoşbəxtlik sanırdın,
Böyüməyi,
Atana oxşamağı.
Beynində iməkləyən fikirlərin
Ardınca qaça-qaça böyüdün.
Atana oxşamaq istəyən oğul,
Başqa dövrə düşdün,
Atana oxşaya da bilmədin.
Hərdən düşünürsən,
Kaş ki uşaq qalaydım elə,
Böyüyə-böyüyə uşaqlaşdığını
Hər gün zaman çırpır sifətinə.

Kaspi 2020.- 2-4 may.- S.15.